**“Dövlət qeydiyyatına alınmışdır”**
**Azərbaycan Respublikasının**
**Ədliyyə Nazirliyi**

**Qeydiyyat № 3098**

**“30” noyabr 2004-cü il**

**Nazir**

**____________ F.F.Məmmədov**

**“Təsdiq edilmişdir”**
**Azərbaycan Respublikası**
**Mərkəzi Bankının**
**İdarə Heyəti**
**Protokol № 20**

**“18” noyabr 2004-cü il**

**İdarə Heyətinin sədri**

**____________ E.S.Rüstəmov**

# Azərbaycan Respublikasında xatirə sikkələrinin tədavülə buraxılması

# Q A Y D A L A R I

**(15 aprel 2010-cu il tarixli dəyişikliklərlə)**

**Bakı 2004**

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən hazırlanmışdır və Azərbaycan Respublikası ərazisində xatirə sikkələrinin tədavülə buraxılması qaydalarını müəyyən edir.

1.2. Azərbaycan Respublikasının ərazisində xatirə sikkələrinin istehsal edilməsi və tədavülə buraxılması hüququ müstəsna olaraq Azərbaycan Respublikası Mərkəzi Bankına (bundan sonra Mərkəzi Bank) məxsusdur.

1.3. Xatirə sikkələri Azərbaycan Respublikasının qanunu ödəniş vasitəsidir, respublikanın bütün ərazisində manatla ifadə olunan nominal qiymətləri ilə hər növ ödənişlərin həyata keçirilməsi, hesablara daxil edilməsi və pul köçürmələri zamanı qəbul edilməlidir.

1.4. Mərkəzi Bank tərəfindən tədavülə buraxılan xatirə sikkələri tarixi, ədəbi və mədəniyyət abidəsi əhəmiyyətini kəsb etmir.

1.5. Xatirə sikkələri istehsal üsulları və keyfiyyətinə görə bu Qaydalardakı kimi təsnifləşdirilir.

## 2. Anlayışlar

2.1. “**Xatirə sikkələri**” – istehsalında bahalı metallardan (xüsusən qiymətli metallardan), mürəkkəb döymə texnologiyalarından, bədii tərtibat elementlərindən istifadə edilən, onlara xüsusi xassə verən, dövriyyədə nominal dəyəri və nominal dəyərindən fərqli olan digər qiymətlə istifadə edilməsinə imkan yaradan sikkələr aid edilir.

2.2. **“Pruf”**– ən yüksək keyfiyyətdə “proof” döymə texnologiyası ilə istehsal edilmiş, səthi tamami ilə düz, parlaq, üzərində yalnız tutqun təsvirlər olan, gözlə görünən cızıq, xətt, əl izləri və digər qüsurları olmayan və relyefi ən xırda detallarınadək dəqiq olan proof keyfiyyətli xatirə sikkələridir.

2.3. **“Parlaq”**– yüksək keyfiyyətli, döymə texnologiyası ilə hazırlanmış, səthi düz, parıldayan, relyefi dəqiq olan, üzərində gözlə

görünən cızıq, xətt və digər qüsurları olmayan parlaq keyfiyyətli xatirə sikkələridir.

## 3. Xatirə sikkələrinin hazırlanması və tədavülə buraxılması.

3.1. Xatirə sikkələrinin dizaynının mövzusu, texniki göstəriciləri və buraxılış limiti Mərkəzi Bankın İdarə Heyəti tərəfindən təsdiq edilir.

3.2. Hər bir pruf və parlaq keyfiyyətli xatirə sikkələri üçün təsdiq edilmiş hər mövzu üzrə Mərkəzi Bankın ~~İdarə Heyəti~~ sədrinin imzası ilə həqiqilik sertifikatı hazırlanır. Sertifikatda müvafiq xatirə sikkələrinin dizaynının mövzusu barəsində ümumi məlumat, onların texniki göstəriciləri və buraxılış limiti göstərilir.

3.3. Xatirə sikkələri müəyyən olunmuş limit həddində bir neçə dəfə istehsal edilə bilər.

3.4. Buraxılan xatirə sikkələrinin sifarişini, onların hazırlanıb respublikaya gətirilməsini və tədavülə buraxılmasını Mərkəzi Bank təşkil edir.

3.5. Hüquqi və fiziki şəxslərə, əhaliyə xatirə sikkələrinin texniki göstəriciləri, satış qiymətləri və sair haqqında məlumat verilməsini Mərkəzi Bank təşkil edir.

3.6. Xatirə sikkələrinin satış qiymətləri Mərkəzi Bank tərəfindən istehsal xərcləri, qiymətli metalların bazar qiymətləri və digər xərcləri (daşınma, sığorta və sair) və keyfiyyəti nəzərə alınmaqla müəyyən edilir və Mərkəzi Bankın İdarə Heyəti tərəfindən təsdiq edilir.

3.7. Xatirə sikkələri müvafiq qaydada Mərkəzi Bankın pul və digər qiymətlilər saxlanılan anbarında saxlanılır.

3.8. Hüquqi və fiziki şəxslərə (o cümlədən banklara) xatirə sikkələri Mərkəzi Bankın kassa xidməti göstərən struktur bölmələrində və qurumlarında nağd və köçürmə yolu ilə satılır.

3.9. Xarici hüquqi və fiziki şəxslərdən sifariş daxil olduqda Mərkəzi Bank tələb olunan xatirə sikkələrinin mövcud olduğunu təsdiq edir və

sifarişçi tərəfindən müvafiq məbləğin ödənilməsini təşkil edir. Satış qiyməti və daşınma xərcləri ödənildikdən sonra tələb olunan miqdarda xatirə sikkələrinin sifarişçiyə göndərilməsini təşkil edir.

3.10. Hüquqi və fiziki şəxslər xatirə sikkələri ilə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq alqı-satqı və digər əməliyyatları həyata keçirə bilərlər. Bu zaman xatirə sikkələrinin alqı-satqı qiymətləri tərəflər arasında sərbəst müəyyən edilir.

3.11. Xatirə sikkələri ilə aparılan əməliyyatların uçotu Mərkəzi Bankın müəyyən etdiyi qaydada aparılır.

## 4. Yekun müddəalar

4.1 Bu Qaydalar dövlət qeydiyyatına alındığı gündən qüvvəyə minir.